# AKADEMİK HEYƏTİN BEYNƏLXALQ ELMİ MÜHİTƏ İNTEQRASİYASINDA ALİ MƏKTƏB KİTABXANALARININ İNFORMASİYA RESURSLARININ ROLU

**_Cahan Ramik qızı Əhmədli_**

*BDU Kitabxana resurslarının idarə edilməsi kafedrası,*
*magistrant*
*jahan.mirzeyeva@mail.ru*

***Açar sözlər:*** *universitet kitabxanaları, informasiya resursları, süni intellekt, beynəlxalq elmi əməkdaşlıq, sosial media, rəqəmsal transformasiya, texnoloji yeniliklər*

***Ключевые слова:*** *университетские библиотеки, информационные ресурсы, искусственный интеллект, международное научное сотрудничество, социальные сети, цифровая трансформация, технологические инновации*

***Keywords:*** *university libraries, ınformation resources, artificial intelligence, ınternational scientific cooperation, social networks, digital transformation, technological innovation*

**Xülasə:** Məqalədə universitet (ali məktəb) kitabxanalarının beynəlxalq elmi mühitə inteqrasiyasındakı rolu və informasiya resurslarını necə idarə etməsi araşdırılır. Son illərdə müasir texnologiyaların tətbiqi, xüsusən süni intellektin istifadəsi ilə universitet kitabxanaları məlumatların daha sürətli və dəqiq şəkildə idarə edilməsini təmin edir. Açıq elmi məlumatlar və rəqəmsal resursların istifadəsi akademik tədqiqatların sürətini artırır və dünya miqyasında elmi əməkdaşlıq imkanlarını genişləndirir. Sosial media vasitəsilə kitabxanalar istifadəçilərlə əlaqələri gücləndirir və xidmətlərini daha geniş auditoriyaya çatdırır. Həmçinin məqalədə universitet kitabxanalarının müasir dövrün tələblərinə uyğun olaraq fəaliyyətlərini inkişaf etdirməsi, texnoloji yenilikləri tətbiq etməsi, beynəlxalq əməkdaşlıq formalarını genişləndirməsi zərurəti, o cümlədən bu kitabxanalarda tətbiq oluna biləcək beynəlxalq təcrübələrə dair tövsiyələr şərh olunur.

**Резюме:** В статье рассматривается роль университетских библиотек в интеграции в международную научную среду и то, как они управляют информационными ресурсами. В последние годы внедрение современных технологий, особенно использование искусственного интеллекта, позволило университетским библиотекам управлять информацией более оперативно и точно. Использование открытых научных данных и цифровых ресурсов ускоряет академические исследования и расширяет возможности научного сотрудничества во всем мире. С помощью социальных сетей библиотеки укрепляют отношения с пользователями и охватывают более широкую аудиторию своими услугами. В статье также говорится о необходимости развития деятельности университетских библиотек в соответствии с требованиями современной эпохи, применения технологических инноваций, расширения форм международного сотрудничества, в том числе даются рекомендации по международному опыту, который может быть применен в этих библиотеках.

**Summary:** The article examines the role of university libraries in integration into the international scientific environment and how they manage information resources. In recent years, the introduction of modern technologies, especially the use of artificial intelligence, has allowed university libraries to manage information more quickly and accurately. The use of open scientific data and digital resources accelerates academic research and expands opportunities for scientific collaboration around the world. With the help of social networks, libraries strengthen relationships with users and cover a wider audience with their services. The article also discusses the need to develop the activities of university libraries in accordance with the requirements of the modern era, the use of technological

innovations, the expansion of forms of international cooperation, including recommendations on international experience that can be applied in these libraries.

Son illərdə ali təhsil və akademik tədqiqatlar sahəsində qlobal dəyişikliklər sürətlənmiş və universitet kitabxanalarının bu dəyişikliklərə adaptasiya olunması vacib bir məsələ halına gəlmişdir. Universitet kitabxanaları, təkcə kitablar və digər çap materiallarını saxlayan təsisatlar deyil, həm də məlumatların təşkil edilməsi, saxlanması və istifadəçilərə təqdim edilməsi sahəsində mühüm rol oynayırlar. Müasir dünyada informasiya resurslarının effektiv idarə edilməsi, universitetlərə beynəlxalq elmi mühitə inteqrasiya olunmaq və akademik fəaliyyətin keyfiyyətini yüksəltmək baxımından çox önəmlidir. İnformasiya cəmiyyətinin inkişafı ilə paralel olaraq, akademik kitabxanalar da rəqəmsal texnologiyalar, açıq elmi məlumatlar və digər innovativ alətlərin istifadəsi ilə daha geniş imkanlara malik olmuşdur. Bu məqalədə, universitet kitabxanalarının informasiya resurslarının beynəlxalq elmi mühitə inteqrasiyasında oynadığı rolu araşdırmaq məqsəd qoyulmuşdur. Xüsusilə, məlumatın idarə edilməsi, müasir texnologiyaların istifadəsi, açıq elmi resurslar və digər beynəlxalq əməkdaşlıq formalarının universitet kitabxanaları tərəfindən necə tətbiq edildiyi diqqət mərkəzindədir. Bu yanaşmalar, akademik mühitin qlobal səviyyədə inteqrasiyasına necə təsir edir və bu prosesin universitetlərə akademik tədqiqatları və təhsili necə inkişaf etdirməkdə kömək etdiyini araşdırmaq üçün vacibdir.

Kitabxanaların mandat və missiyasının müəyyənləşdirilməsi onların səmərəli fəaliyyəti üçün əsas amillərdən biridir. Təşkilati missiya kitabxananın funksiyasını, xidmət etdiyi auditoriyanı və mövcudluq məqsədini müəyyən edir. Akademik kitabxanalar ali təhsil müəssisələrinin struktur bölməsi kimi fəaliyyət göstərdiyindən, onların missiyası ATM-in ümumi missiyasına uyğun formalaşmalıdır. Bununla belə, kitabxananın öz spesifik məqsədlərini və fəaliyyət prioritetlərini müəyyənləşdirməsi də vacibdir. İnformasiyanın sürətlə artdığı mühitdə təhsilalanlara etibarlı və faydalı məlumatların təqdim olunması kitabxanalar qarşısında mühüm vəzifələrdən biridir. İKT-nin inkişafı və onlayn resurslara çıxış imkanlarının genişlənməsi kitabxana-informasiya proseslərinə sistemli yanaşmanı zəruri edir. Bu səbəbdən, ATM kitabxanaları sənəd-informasiya resurslarından istifadənin peşəkar və məqsədyönlü təşkili üçün yeni yanaşmalara, müasir metodların tətbiqinə xüsusi diqqət yetirir. Qeyri-kommersiya təşkilatlarında, o cümlədən kitabxana-informasiya sahəsində maliyyə resurslarının azalması son onilliklərlə müqayisədə daha qabarıq müşahidə olunur. Kitabxanalar artıq qrantlar və digər kənar maliyyə mənbələrinə bel bağlamır, əksinə, mövcud resurslardan maksimum səmərə ilə istifadə yollarını araşdırırlar. Belə bir şəraitdə, kapitalizmin qeyri-kommersiya təşkilatları üçün yaratdığı iqtisadi çətinliklər kitabxana mütəxəssislərinin yeni təşəbbüslər irəli sürmək imkanlarını məhdudlaşdırır ki, bu da gələcək nəticələrin proqnozlaşdırılmasını çətinləşdirir. Digər mühüm amil isə ali təhsilin inkişafına təsir edən texnologiyadır.

İnformasiya daşıyıcılarının çoxluğu, eləcə də kompüter və kommunikasiya texnologiyalarının geniş tətbiqi kitabxanalar üçün ciddi maliyyə tələb edən əsas problemlərdən birinə çevrilmişdir. Kitabxanalar informasiya resurslarını daha səmərəli üsullarla istifadəçilərə təqdim edə bilsələr də, bu imkanların təmin edilməsi yüksək maliyyə xərcləri tələb edir. Buna baxmayaraq, xüsusilə ATM kitabxanalarında texnoloji yeniliklərin tətbiqi və sistemli təkmilləşdirmələr bu sahəyə daha çox maliyyə resurslarının ayrılmasını zəruri edir. Digər tərəfdən, müəyyən müddət işlədikdən sonra universitetə və ya ömürboyu təhsilə qayıdan insanların sayının artması kitabxanaların xidmət strategiyasına təsir göstərir. Belə istifadəçilərin kitabxanalardan gözləntiləri onların iş təcrübəsi və təhsil səviyyəsi ilə sıx bağlıdır. Təcrübə göstərir ki, mədəni və etik baxımdan müxtəlif olan istifadəçi qrupları ATM-lərdən öz ehtiyaclarının qarşılanmasını gözləyir və kitabxanaçılar tərəfindən fərqli dəstək mexanizmlərinin təmin edilməsinə ehtiyac duyurlar. Bu kontekstdə kitabxanaların tədris prosesinə yardımçı olması müstəsna əhəmiyyət daşıyır. Oxucu müxtəlifliyi və onların gözləntiləri akademik və tədqiqat yönüm-

lü kitabxanaların fəaliyyət prinsiplərinə təsir göstərdiyi kimi, bu amilin qəbul edilməsi kitabxanaların mütəxəssis seçimində yeni yanaşmalara ehtiyac yaratmışdır.

Təhsil müəssisələri insan inkişafının təməl daşı, kitabxanalar isə təhsil sisteminin ayrılmaz və vacib komponentlərindən biridir. Bu baxımdan, ATM kitabxanalarının rolu yalnız savadlılığın və davamlı təhsilin dəstəklənməsi ilə məhdudlaşmır, eyni zamanda milli inkişaf strategiyalarının reallaşmasına töhfə verir. Kitabxana-informasiya sistemləri təhsil sektorunda mühüm mövqeyə malik olmaqla, bilik cəmiyyətinin formalaşmasına və əmək bazarında rəqabətqabiliyyətli mütəxəssislərin yetişdirilməsinə xidmət edir. Omeluzor və Oqo akademik kitabxanalarda çalışan mütəxəssislərin əsas vəzifəsinin fakültələrlə sıx əməkdaşlıq edərək tələbələrin informasiya resurslarından səmərəli istifadəsini təşkil etmək və onların savadlı məzun kimi formalaşmasına dəstək vermək olduğunu vurğulamışdır. ATM kitabxanalarının funksiyaları isə ümumiləşdirilmiş şəkildə aşağıdakı istiqamətləri əhatə edir:

- Oxuma, öyrənmə və tədqiqat üçün əlverişli və sakit mühitin yaradılması;
- Təhsilalanların biblioqrafik vəsaitlər, lüğətlər, referatlar, ensiklopediyalar, dərsliklər, atlaslar, dövri nəşrlər və digər sənəd-informasiya resursları ilə təmin olunması;
- Universitet heyətinin ən son elmi və texnoloji yeniliklər barədə məlumatlandırılması;
- Yeni tələbələrin tədris materiallarını tez və düzgün əldə etmə yollarını öyrənməsinə yardım göstərilməsi;
- ATM-in təsisçiləri və professorları tərəfindən yazılmış dərslik və dərs vəsaitlərinin, eləcə də universitet tarixinə dair materialların mühafizəsi;
- Tələbə və professor-müəllim heyətinin biblioqrafik təlimatlar, kitabxanalararası abonoment xidməti və digər informasiya xidmətləri ilə təmin edilməsi;
- Professorlara elmi işlərin, dissertasiyaların və elmi nəşrlərin hazırlanmasında dəstək göstərilməsi;
- Nadir kitabların qorunması və onlardan istifadə imkanlarının təmin edilməsi.

Fərqli ali təhsil müəssisələrində, o cümlədən universitetlərdə fəaliyyət göstərən akademik kitabxanaların əsas funksiyaları ilə bağlı müxtəlif yanaşmalara rast gəlinir. Lakin bu funksiyalar elmi araşdırmalarda geniş istifadə olunan və akademik kitabxanaların fəaliyyət istiqamətlərini ümumiləşdirən əsas sahələr kimi qəbul edilir. Bununla belə, təqdim olunan təsnifləşdirmənin müəyyən çatışmazlıqları da mövcuddur. Xüsusilə, oxucuların mənəvi-estetik zövqünün formalaşdırılması və son dövrlərdə kitabxanalar üçün prioritet istiqamətlərdən birinə çevrilmiş elektron resurslardan istifadə məsələsi ayrıca vurğulanmamışdır. Halbuki, müasir akademik kitabxanalar universitetin ixtisas profili ilə uyğunluq təşkil edən elektron məlumat bazalarına abunəlik təmin etməklə yanaşı, oxucuların bu resurslardan səmərəli istifadə etmə bacarıqlarının inkişafına xüsusi diqqət yetirirlər.

Araşdırmalar göstərir ki, akademik kitabxanalar savadlı məzunların yetişdirilməsinə, onların əmək bazarında rəqabətqabiliyyətli mütəxəssis kimi formalaşmasına və davamlı təhsilin dəstəklənməsinə mühüm töhfə verir. Rəqəmsal transformasiyalar nəticəsində kitabxana-informasiya sahəsində texnoloji yeniliklərin tətbiqi intensivləşmiş, bu da elmi araşdırmaların sürətlənməsinə və rəqəmsal təhsilin inkişafında kitabxanaların rolunun güclənməsinə səbəb olmuşdur. Beləliklə, akademik kitabxanalar informasiya resurslarının səmərəli idarə olunması və istifadəsində strateji əhəmiyyət kəsb edir.

### Ədəbiyyat

1. Azərbaycanda Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə "Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // "Respublika" qəzeti, 2008, 7 oktyabr.

2. Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // “Azərbaycan” qəzeti. – 2007. - 21 aprel.

3. *Гардашев, Р.А.* (2013). Проблемы организации непрерывного образования по библиотечному делу. Вектор науки Тольяттинского государственного университета. Серия: Педагогика, психология. – №(1). – С. 55-58.

4. *Məmmədova, V.M.* Müasir akademik kitabxanalarda müasir informasiya fəaliyyətinin təşkili metodikası: ADA Universiteti kitabxanasının iş təcrübəsi əsasında // “Kitabxanaşünaslıq və biblioqrafiya” elmi- nəzəri və təcrübi jurnalı. - Bakı, 2016. - №2(39). – S. 46-54.

5. *Abdullayeva, A.* UNEC kitabxana-informasiya mərkəzinin elektron resursları və elektron xidmətlər // ”Elektron kitabxanaların təşkili və formalaşması” mövzusunda onlayn elmi konfrans. - Naxçıvan, 2021. – S.12.

6. *Hacıyeva, X.* "E-kitabxanaların formalaşması problemləri" respublika elmi praktiki konfransı // Müasir elektron biblioqrafik verilənlər bazasının yaradılması, struktur quruluşu və istifadəsi məsələləri. - Bakı, 15 aprel. - 2016.

7. *Qardaşov, R.* Xəzər Universitetinin Kitabxana-İnformasiya mərkəzinin elektron kataloqu // Kitabxanaşünaslıq və biblioqrafiya. - 2018. - №1(42). – S. 48-56.